**MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCAN RESPUBLİKASININ REGİONAL KİTABXANA ŞƏBƏKƏSİNDƏ MİLLİ DÖVLƏTÇİLİK, MİLLİ İDEOLOGİYA VƏ VƏTƏNPƏRVƏRLİYƏ DAİR ƏDƏBİYYATIN TƏBLİĞİ VƏZİYYƏTİ (ŞƏKİ-ZAQATALA İQTİSADİ REGİONUNUN NÜMUNƏSİNDƏ)**

**Daşqın Məhəmmədli**
*Bakı Dövlət Universitetinin Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi*
*dashqin.muhammedli@mail.ru*

***Xülasə:*** *Məqalədə müasir informasiya cəmiyyəti şəraitində Azərbaycan Respublikasında regional kitabxana şəbəkəsinin hüquqi-elmi və təşkilati əsasları təhlilə cəlb edilir. Ölkənin ərazisinin qanunla müəyyən olunaraq bölünən iqtisadi regionlarında kitabxana-informasiya və biblioqrafiya xidmətinin vəziyyəti ətrafında nəzəri ümumilşdirilmə əks etdirilir. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun nümunəsində ölkənin regional kitabxana şəbəkələri sistemində milli dövlətçilik, milli ideologiya, azərbaycançılıq fəlsəfi konsepsiyası, vətənpərvərlik və hərbi tərbiyəyə dair ədəbiyyatın təbliği məsələlərinin şərhi verilir. Məqalədə iqtisadi regionun kitabxanalarında milli dövlətçilik, milli ideologiya, vətənpərvərlik və multikulturalizm mövzularına aid yaradılmış bir sıra seriyalı və monoqrafik nəşrlər və eletron məlumat bazaları, eləcə də, soraq-məlumat və biblorafik nəşrləri haqqında bəhs edilir. İqtisadi regionun kitabxanalarında oxucularla işin təşkili prosesində müşahidə edilən yeniliklər, multikultural region əhalisinə kitabxana-informasiya xidmətində nəzərə alınan spesifik metodlar ətrafında nəzəri şərh verilir.Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan inzibati rayonların mərkəzləşdirilmiş kitabxana sistemlərinin ölkənin ümumi kitabxana-informasiya şəbəkəsi sistemində tutduğu yeri və rolu, mövcud problemlər və həlli yolları, yeniliklər və perspektivlər ətrafında elmi sistemləşdirilmə verilir.*

***Açar sözlər:*** *Kitabxana, informasiya, iqtisadi region, milli ideologiya, vətənpərvərlik, Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionu, regional kitabxana şəbəkəsi*

Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasında, milli ideologiyanın formalaşmasında, milli mədəniyyətin, maarifçiliyin və təhsilin tərəqqisində, cəmiyyət üzvlərinin vətənpərvərlik ruhunun yüksəldilməsində kitabxanalar ölçüyəgəlməz rola malikdir. Eyni zamanda, tarixi və mədəni dəyərləri zəngin olan Azərbaycan xalqının dövlətçilik ənənələrində priorotet istiqamət olan milli və etnik bərabərlik məsələləri, multikultural dəyərlər sisteminin təbliği də kitabxanalar üçün daim prioritet istiqamət olmuşdur. Azərbaycan Respublikası qabaqcıl dünya siyasi təcrübəsinin demokratik tələbləri səviyyəsində dövlət quruculuğu prosesini sürətləndirir, xalqın milli-mənəvi dəyərlərinin qorunması, ölkədə vətəndaş cəmiyyətinin və multikulturalizm mühitinin inkişaf etdirilməsi uğrunda qətiyyətli siyasi mövqe nümayiş etdirir. Bu baxımdan, Azərbaycanda digər sahələrdə olduğu kimi, kitabxanalarda da dövlətçiliyin, milli azərbaycançılıq ideologiyasının, azərbaycançılıq fəlsəfi konsepsiyasının, milli vətənpərvərliyin təbliğinin ictimai-siyasi, sosial-mədəni, elmi və kulturoloji əsaslarının araşdırıllması, eləcə də, bu siyasətin istiqamətləndiyi sosial sahələrin elmi-nəzəri təhlili ciddi aktuallığı ilə səciyyələnir.



Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinə dair dövlət siyasəti əsasən regional kitabxana-informasiya sistemlərinin uzlaşdırılmış fəaliyyəti fonunda təhlil edilir. Belə ki, iqtisadiyyatının sürətli inkişafı, ölkənin iqtisadi qüdrətinin daha da möhkəmlənməsi Respublikanın regionlarında sürətli iqtisadi inkişafı təmin edən kompleks tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2009-2013-cü illər) təsdiq edilməsi haqqında" "Azərbaycan Pespublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncamları ilə ölkənin ərazisi on iqtisadi regiona (Abşeiron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Lənkəran, Naxçıvan iqtisadi regionları) bölünmüşdür [3,s.25]. Ayrı-ayrı sahələrin ölkənin regionları üzrə uzlaşdırılaraq inkişaf etdirilməsi kimi mütərəqqi vəzifələri qarşıya qoyan bu siyasətə uyğun olaraq kitabxana-informasiya sahəsinin regionalar üzrə inkişafının əsaslarını müəyyən edən "Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycanda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın qəbul edilməsi haqqında", "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" və s. kimi kompleks ümumdövlət proqramları qəbul edilmiş və icrasına başlanılmışdır [4,s.25].

Qəbul edilən bu dövlət sənədləri ölkədə təkmil regional kitabxana-informasiya sisteminin yaradılması və inkişafının hüquqi-elmi və iqtisadi əsaslarını müəyyənləşdirən, sahənin kompleks inkişafı və perspektiv tərəqqisinə hərtərəfli dəstək verən ümummilli proqramlardır. Məhz bu proqramların ayrı-ayrı müddəalarında ölkənin müxtəlif regionlarının tarixi, milli-etnik, demoqrafik və təbii-coğrafi amilləri nəzərə alınmaqla informasiya tələbatçılarına, ümumilikdə bütün cəmiyyət üzvlərinə milli dövlətçilik, milli ideologiya, azərbaycançılıq fəlsəfi konsepsiyasının əsasları, vətənpərvərlik, milli-mənəvi dəyərlər üzərində tərbiyəni özündə ehtiva edən əsərlərin təbliği, kitabxanalarda bu kimi məsələlərlə bağlı kütləvi tədbirlərin keçirilməsi və s. öz əksini tapmışdır.

Müəyyən bir sahəyə dair dövlət siyasətinin həyata keçirilməsi, eləcə də, kitabxanalarda dövlətçiliyə, milli ideologiyaya, vətənpərvərliyə dair ədəbiyyatın təbliği mürəkkəb bir proses olmaqla yanaşı, o, cəmiyyətdə baş verən hadisələrlə,

onların təhlili ilə, yeni ideyaların və fikirlərin ümumiləşdirilməsilə əlaqədardır. Dövlətin sosial-iqtisadi, siyasi və mədəni həyatında, demokratiyanın və milli özünüdərkin təbliğində ümumbəşəri mədəni sərvət olan kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisələri kimi yüksək sosial funksiyaları yerinə yetirir. Müasir informasiyalaşdırılmış cəmiyyət şəraitində böyük sosial funksiyaları həyata keçirən, cəmiyyətdə mədəni sərvətlərin keçiricisi rolunda çıxış edən, keçmişlə gələcəyin mədəniyyətini, elmini, sənədləşdirilmiş intellektual resurslarını uzlaşdıran, informasiya kommunikasiyasının ən zəngin, təkmil və operativ həlqəsini təşkil edən kitabxanalara Azərbaycan dövləti tərəfindən yüksək hüquqi-elmi qiymət verilmişdir. Belə ki, 1999-cu ildə qüvvəyə minən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət edən sosial institut"dur [10,s.5].

Azərbaycanın kitabxana şəbəkəsində kütləvi kitabxanaları özündə birləşdirən Mərkəzləşdirilmiş Kitabxana Sistemləri əsas yer tutur. Ölkənin on iqtisadi regionunun hər birinə daxil olan inzibati rayonların hər birində Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS) fəaliyyət göstərir. Bu MKS-lərin hər birinə şəhər (rayon) Mərkəzi Kitabxanası, şəhər kitabxana filialları, qəsəbə kitabxana filialları və kənd kitabxana filialları daxildir [6,s.319]. MKS-lərin fəaliyyətinin predmeti informasiya, elm, mədəni-maarif və təhsil işidir. Bu işdə ilk növbədə fondun formalaşdırılması, elmi cəhətdən işlənməsi və mühafizəsi, kitabxanalardan istifadə edənlərə kitabxana-informasiya və sorğu-biblioqrafiya xidmətlərinin göstərilməsi, kitabxanalararası abonementin təşkili, kitabxanaların elmi-metodiki təminatı daxildir.

Azərbaycan Respublikasının iqtisadi regionları içərisində tarixi-mədəni, etnoqrafik, milli-etnik və təbii-coğrafi əhəmiyyətinə görə fərqlənən iqtisadi regionlardan biri Şəki-Zaqatala iqtisadi regionudur. Bu iqtisadi regionun tərkibinə Şəki, Qəbələ, Qax, Oğuz, Balakən və Zaqatala inzibati rayonları daxildir. Bu rayonların hər birinin Mərkəzləşdirilmiş Kitabxana Sistemi regionun çoxmillətli multikultural informasiya tələbatçılarına kitabxana-biblioqrafiya və informasiya xidmətinin təşkilini həyata keçirir, ölkədə vahid mərkəzləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin formalaşdırılmasında mühüm rol oynayaraq informasiyalaşdırılmış cəmiyyətin bərqərar olunması prosesinin sürətləndirilməsinə əhəmiyyətli töhfələr verir. İqtisadi regionun tərkibinə daxil olan inzibati rayonların hər birinin mərkəzi kitabxanalarında hərbi vətənpərvərlik tərbiyəsinin təbliği ilə bağlı "Yaddan çıxmaz Qarabağ", "Qarabağ müharibəsi" [14], "Dağlıq Qarabağ", "Şəhidlər" [18], "Azərbaycanın Milli Qəhrəmanları", "Unudulmaz Vətən Fədailəri", "Xalq sizi unutmayacaq" [15] və s. kimi kartotekalar yardılaraq oxucuların əlçatarlığının təmin olunmasını həyata keçirilir.

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan inzibati rayonların mərkəzi kitabxanalarında milli dövlətçilik və milli ideologiyaya dair ədəbiyya-



tın təbliği məqsədilə "Azərbaycan – qədim mədəniyyət və sivilizasiya mərkə-
zi", "Şah İsmayıl Xətai" [16], "Uzun Həsən", "Odlar yurdu Azərbaycanın qə-
dim dövlətçilik tarixi", "Tarixi Azərbaycan dövlətlərinin idarəetmə forması və
dövlətçilik ideologiyası" [19], "Turanın tərkib hissəsi Azərbaycan", "Azərbay-
can Xalq Cümhuriyyəti", "Ümummilli lider Heydər Əliyev – Müstəqil Azər-
baycanın memarı","Dünyanın böyük siyasət və dövlət xadimi Heydər Əliyev"
[17], "Üçrəngli Dövlət Bayrağımız", "Heydər Əliyev azərbaycançılıq fəlsəfi
konsepsiyasının banisidir", "Azərbaycan Respublikasının dövlət rəmzləri",
"İlham Əliyev və multikulturalizm siyasəti" [18] və s. kartotekalar yaradılaraq
informasiya tələbatçıları üçün əlyetərliyi təmin edilmişdir.

Regionun inzibati rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə daxil olan dövlətçilik, milli ideologiya, vətənpərvərlik, hərbi tərbiyəyə dair yeni soraq və biblioqrafik nəşrlərlə tanışlıq, fonda daxil olan ədəbiyyat haqqında oxuculara məlumat vermək, avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərində axtarış aparmaq, elektron resurslarla, kitabxananın saytı ilə iş vərdişləri aşılamaq, xüsusilə, regionu öyrənmək üçün təşkil edilən tədbirlərdə təsvir olunan xəbərlərin, hadisələrin xroniki ardıcıllığını və xronikanın sonunda ədəbiyyat siyahısının təqdim edilməsi qeyd edilən aspektlərdə informasiya tələbatının yüksək səviyyədə həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır. Şəki-Zaqatala iqtisadi regionuna daxil olan kitabxanalarda dövlətçilik, milli ideologiya, multikulturalizm, hərbi vətənpərvərlik və hərbi tərbiyəyə dair informasiyalar ənənəvi çap məhsulları ilə bərabər elektron formada da təqdim olunur. Kitabxanaların qlobal internet şəbəkəsinə qoşulması ilə tələbatçılar üçün ümumaçıq informasiya məkanı formalaşır. Xidmət prosesində elektron sənədlər və elektron kataloqlar, elektron poçt və s. istifadə olunur.

Regionun tərkibinə daxil olan inzibati rayonların mərkəzləşdirilmiş kitabxana sistemlərində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi şəraitində kitabxana-informasiya xidmətində bir sıra operativ yeniliklər də müşahidə edilməkdədir. Belə ki, hər bir inzibati rayonun mərkəzləşdirilmiş kitabxana sistemində avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) tətbiq olunur. Azərbaycan Respublikasının kitabxnalarında ümumilikdə bir sıra avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri tətbiq olunur ki, onların sırasında "İRBİS-64", "VTLS-VİRTUA", "RUSLAN", "ALEF" və s. kimi AKİS-lərin adlarını qeyd edə bilərik. Məsələn, Respublikanın ən böyük dövlət kitabsaxlayıcısı olan Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında "VTLS-VİRTUA" (Amerika Birləşmiş Ştatlarının Virciniya Elmi-Texniki Kitabxanasının proqram məhsulu) tətbiq olunur [9, s.115].

Ölkənin demək olar ki, əksər kütləvi kitabxanalarında "İRBİS-64" (Ru-
siya İnteqrallaşdırılmış Kitabxana-İnformasiya Sistemi) tətbiq olunur. Bu
AKİS vasitəsilə ənənəvi kitabxana proseslərini avtomatlaşdırmaq, elektron ka-
taloq və elektron kitabxana yaratmaq, oxuculara kitab verilişi (abonement)
xidmətini və kitabxanaların ədəbiyyatla komplektləşdirilməsini xidmətini hə-
yata keçirmək mümkündür. Ona görə də, Azərbaycan Respublikasının bütün

iqtisadi regionlarında və onların tərkibinə daxil olan inzibati rayonların kütləvi və məktəb kitabxanalarında "İRBİS-64" Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi tətbiq olunur. Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan inzibati rayonların (Şəki, Qax, Oğuz, Qəbələ, Balakən, Zaqatala) Mərkəzi Kitabxanalarında məhz bu AKİS vasitəsilə ənənəvi kitabxana prosesləri avtomatlaşdırılır [6, s.319]. Bu avtomatlaşdırmanın nəticəsi olaraq oxuculara kitabxana-informasiya xidmətinin operativ əsaslar üzərində təşkili, məsafədən xidmət, qlobal şəbəkə vasitəsilə xidmət, bir sıra coğrafi, dil və digər əlçatarlıq manelərin aradan qaldırılmış, elektron informasiya vasitələrinin kitabxana resursları sistemində yerinin artmasına əhəmiyyətli töhfə vermiş, ümumilikdə region kitabxanaları ölkədə informasiyalaşdırılmış vətəndaş cəmiyyəti quruculuğu prosesinin mühüm tərkib hissəsinə çevrilmişdir. Belə ki, ictimai əhəmiyyət daşıyan məlumatların toplanması, saxlanması, istehsalı, yayılması və istifadəsi proseslərində iştirak edən kitabxana, ilk növbədə, cəmiyyətin sonrakı inkişafında asılı olan ən dəyərli sosial məhsula, strateji milli mənbəyə çevrilməsinə əhəmiyyətli töhfə verir. Bundan əlavə, informasiya mənbələrindən istifadəyə əsaslanan eni kommunikativ rejimdə işləmək üçün geniş oxucu kütləsinin tanıdılması ilə, kitabxana müxtəlif sosial qruplar arasında tədricən "İnformasiya şüuru"nun formalaşmasına öz töhfəsini verir. Məhz belə şəraitdə Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun kitabxanaları fəaliyyətinin yeni texnoloji şəraitdə faktiki kitabxana xidməti: yəni, sənədlərin və ya onlar haqqında bibloqrafik məlumatların verilməsi, daha çox evristik baxımdan cəlbedici, analitik-sintetik imkanlarla yeni məlumatötürmə formaları ilə əvəz olunur. Kitabxanalar sosial, hüquqi, iqtisadi məsələlərə, habelə, yerli idarəetmə, tarix, ekologiya, mədəni həyat və işgüzar fəaliyyət problemlərinə dair, xüsusilə də, milli dövlətçilik, milli ideologiya, multikultralizm və vətənpərvərliyə dair faktiki məlumat bazalarının yaradılmasına daha çox diqqət yetirir. Region kitabxanalarının informasiya funksiyası informasiya məkanının modelləşdirilməsi prosesində mənbələrin qiymətləndirilməsi və resurs yönümlü aspektləri ilə daha çox uyğunlaşır.

Müasir informasiyalaşdırılmış cəmiyyət şəraitində sənədli məlumatları və bilikləri subyektlərin istehsalından istehlakçılara ötürməklə, kitabxana bir növ virtual universitet kimi fəaliyyət göstərir və funksional cəhətdən bir təhsil müəssisəsi kimi təhsil sisteminə mümkün qədər yaxınlaşdır ki, bu da region kitabxanasının həm də, regionun təhsil sisteminin mühüm həlqəsi kimi çıxış etməsinə gətirib çıxarır. Beləliklə, müasir regional kitabxanaşünaslıq nəzəriyyəsində göstərilir ki, dəyişən dünyada bir kitabxananın yeni dəyər prioritetləri və həyat tərzi, onun "yerli" mədəni məkandan kənara çıxmasına və sosial-mədəni infrastrukturun sistem yaradan komponentlərindən birinə çevrilməsinə, ətrafında xüsusi bir informasiya mühitinin formalaşmasına kömək edir. Bu informasiya mühiti cəmiyyətin sənəd-informasiya resursları ilə tam təminatı tələbini yaradır.



Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan inzibati rayonlarda kütləvi kitabxanalarla yanaşı, məktəb kitabxanaları, bir sıra iri təhsil müəssisələrinin (kolleclər, ali məktəblərin filialları) kitabxanaları, eləcə də, müxtəlif Qeyri-Hökumət Təşkilatlarının kitabxanaları da fəaliyyət aspekti üzrə region oxucularına milli ideologiya, milli dövlətçilik və vətənpərvəriyə dair ədəbiyyatın təbliği və aşılanmasında əhəmiyyətli rola malikdir. Bu kitabxanaların hər biri informasiya tələbatçıların sağlam milli ruhda, vətənpərvər vətəndaş kimi, milli azərbaycançılıq ideologiyasına sadiq insanlar kimi yetişməsi üçün bütün kompleks kitabxana-biblioqrafiya xidməti üsulları ilə əhəmiyyətli iş aparırlar.

Ümumiyyətlə, regionun bütün növdən və tipdən olan çoxsaylı kitabxanaları inkişaf etmiş informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müxtəlif növ çap məhsullarının saxlayıcısı kimi yox, həm də avtomatlaşdırılmış xidmət sistemlərini özündə cəmləşdirməklə informasiya tələbatçılarının tələbatlarını yüksək səviyyədə ödəyən, milli dövlətçilik, milli ideologiya, vətənpərvərik, multikulturalizm və s. dəyərləri geniş formada təbliğ edən informasiya müəssisələri kimi fəaliyyət göstərməkdədirlər.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**

1. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2007. – 21 aprel
2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi nkişafı Dövlət Proqramı (2004-2008)" // Azərbaycan. – 2004. – 11 fevral.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi nkişafı Dövlət Proqramı (2009-2013). Bakı: Nurlar, – 2009. – 184 s.
4. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. – 2008. – № 2. – s. 6-29.
5. İsmayılov X.İ., İsmayılov N.İ., Bayramova İ.Z. Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə-Qazax iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. – 2009. – № 1. – s. 99-112.
6. İsmayılov X.İ., İsmayılov N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bur.7. Bakı: Mütərcim, – 2007, – s. 318-320.
7. İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi: Dərs vəsaiti. Bakı: "Nurlar", – 2010. – 328 s.
8. Информетрия, наукометрия и библиометрия: наукометрический анализ современного состояния / Пенькова О.В., Тютюнник В.М. // Тезисы докладов конференции Библиотечное вело. Москва, – 2001. – 154 с.
9. Исмаилов Н.И. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики:этапы развития,состояние и пути совершенствования: Мутарджим, – 2005. – 300 с.
10. "Kitabxana işi haqqında"Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. – 1999. – №1.– s.3-16.

11. Карташов Н.С. Взаимодействие научных библиотек РСФСР (1917-1967). Новосибирск: Наука, – 1975. – 279 с.
12. Карташов Н.С. Размещение библиотек и библиотечных ресурсов: региональный аспект //Библиотека, – 2004. – № 4. – с. 61-71.
13. Multikulturalizm Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr /tərt. ed.: M.Hacıyeva, N.Alışova; red. və burax. məsul K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, – 2016. – 59 s.
14. Şəki şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2010-2020-ci il hesabatları
15. Qəbələ rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2010-2020-ci il hesabatları.
16. Oğuz rayon Mərkələşdirilmiş Kitabxana Sisteminin 2010-2020-ci il hesabatları
17. Balakən rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2010-2020-ci il hesabatları.
18. Qax rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2010-2020-ci il hesabatları
19. Zaqatala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2010-2020-ci il hesabatları.

**D.Mahammadli**

**National statehood, national ideology and citizenship in the regional library network of the Republic of Azerbaijan in modern conditions (in the example of Shaki-Zagatala economic region)**

*The article analyzes the legal-scientific and organizational bases of the regional library network in the Republic of Azerbaijan in the conditions of modern information society. Theoretical generalizations about the state of library-information and bibliographic services in the legally defined economic regions of the country are reflected. The example of the Sheki-Zagatala economic region of the Republic of Azerbaijan explains the issues of national statehood, national ideology, philosophical concept of Azerbaijanism, promotion of literature on patriotism and military education in the system of regional library networks of the country. The article discusses a number of serial and monographic publications and electronic databases, as well as reference and bibliographic publications on national statehood, national ideology, patriotism and multiculturalism, created in the libraries of the economic region. Innovations observed in the process of organizing work with readers in the libraries of the economic region are theoretically commented on the specific methods taken into account in the library and information service for the population of the multicultural region. scientific systematize-tion around the role, existing problems and solutions, innovations and perspectives.*

***Key words:*** *Library, information, economic region, national ideology, patriotism, Sheki-Zagatala economic region of the Republic of Azerbaijan, regional library network.*

**Д.Магомедли**

**Национальная государственность, национальная идеология и гражданство в региональной библиотечной сети Азербайджанской Республики в современных условиях (на примере Шаки-Загатальского экономического района)**

*В статье анализируются научно-правовые и организационные основы региональной библиотечной сети Азербайджанской Республики в условиях современного информационного общества. Отражены теоретические обобщения о состоянии библиотечно-информационно-библиографического обслуживания в законодательно определенных экономических районах страны. На примере Шеки-Закатальского экономического района Азербайджанской Республики разъясняются вопросы национальной государственности, национальной идеологии, философской концепции азербайджанства, популяризации литературы патриотизма и военного образования в системе региональных библиотечных сетей страны. В статье рассматривается ряд серийных и монографических изданий и электронных баз данных, а также справочно-библиографических изданий по вопросам национальной государственности, национальной идеологии, патриотизма и мультикультурализма, созданных в библиотеках экономического района. Теоретически комментируются нововведения, наблюдаемые в процессе организации работы с читателями в библиотеках экономического района, учитываются специфические методы, учитываемые в библиотечно-информационном обслуживании населения поликультурного региона, проводится научная систематизация вокруг роли, существующих проблем и решения, инновации и перспективы.*

***Ключевые слова:*** *Библиотека, информация, экономический район, национальная идеология, патриотизм, Шеки-Загатальский экономический район Азербайджанской Республики, региональная библиотечная сеть .*

*Rəyçi: t.ü.e.d., prof.* ***X.İ.İsmayılov***